

El Roman

**O QƏDƏR UZAĞIQ Kİ...**

Nəfəs alıb dərindən ötüb keçən ayıma,
ilimə inanmışam.
Göz-qaşını görəndən qaşla göz arasında
ölümə inanmışam.

Gözlərimi zilləyib baxırdım uzaqlara,
sənsə getdin yağışla.
Sən yağışı sevirsən, güvəndiyim dağlara
qar yağarsa, bağışla...

Canına od qoyduğun yoxluğunda Tanrını
gözüylə zikr eylədi.
Tanrı səni yaradıb əlini göyə açdı,
Özünə şükr eylədi.

Gecə-gündüz demədən gözlədim ki, gələsən,
gəlməmisən hələ sən.
Tələyə düşmək arzum, çünki mənə tələsən,
mənəm sənə tələsən.

Ümidimə qar yağa, qardan həyat düzəldim,
dizi keçincə qayıt.
Sol qolumu dişləyib sənə saat düzəldim,
izi keçincə qayıt.

Gülümsəmir birinə sən gedəli gözlərim,
mənimlə üz-göz oldun.
Gülüm, sənin yerinə o qədər ölmüşəm ki,
artıq ölümsüz oldun.

Ay bəri bax, bəri bax... Mən tərəfdə od yanır
kül olmağa hazıram.
Tanrının iki əllə yaratdığı qadını
mən tək əllə yazıram.

Üzməyimi bilmirik, niyə bizi dərd boğur,
içimizdə kin yatır?
O qədər uzağıq ki, sən tərəfdə gün doğur,
mən tərəfdə gün batır...

**ADAMIN BİQ DƏFƏ ON YAŞI OLUR...**

Adamın bir dəfə on yaşı olur,
Bir dəfə böyüyür uşaq yaşında.
Bir dəfə vurulur bulaq başında,
Bir dəfə qocalır uşaqlaşanda.

O yaşda nə bilim, nə etməliydim?
Elə bil ürəyin parası gedir.
Adamın bir dəfə on yaşı olur,
Adamın bir dəfə atası gedir.

Adamın bir dəfə anası ölür.
Nə bilim, qismətim oyuncaq deyil?
Yıxıldım, özüm də dizimdən öpdüm,
Həmin gün anladım, anam sağ deyil.

Həmin gün böyüdüm, elə o gündən
İçimdə yaralar yetişir mənim.
Dodağım torpaqla, əlim kürəklə,
Çiynim tabutlarla sevişir mənim.

And içib haqqına az girməmişəm,
Bununçün içimi üşüdür Allah.
Adamı ömründə cəmi bir dəfə
Yalan and içəndə eşidir Allah.

Əslində, o, səni öldürmür, ancaq
Səni həm kor edir, həm də lal edir.
Sağ ikən belinə mindiklərinin
Hamısı haqqını min halal edir.

Adamın bir dəfə on yaşı olur.
Bir dəfə böyüyür uşaq yaşında.
Bir dəfə vurulur bulaq başında,
Bir dəfə qocalır uşaqlaşanda.

## SƏNSİZLİYİN BAŞ HƏRFİ

Körpülərin yıxıldı, sən onu səhvlərindən
keçə-keçə unutdun.
Dünən ayaqlarına qaça-qaça sevirdin,
içə-içə unutdun.

O da səni unutdu, gedənlər ayrılığın
adını qismət qoyar.
Həyatdı da, gün gələr, xətrinə can qoyduğun
ətrinə həsrət qoyar.

Elə gözəl gedər ki, göydən düşən hər ulduz
gedəninə bənzəyər.
“Sənsizliyin” baş hərfi yataqda tək qıvrılan
bədəninə bənzəyər.

Sənsiz nə edə bildi, gözlərinin yaşını
qurutdu – qurutmadı?
Daha sevməkdən keçib, ləçəkləri qopar, de:
“Unutdu, unutmadı...”

Ya da, bəlkə, hələ də səni unuda bilmir
unutduğun həmin qız.
Kitabın arasında çiçəyin əvəzinə
qurutduğun həmin qız.

## İKİ TANRI

Göylərdə yaşayan qız, baxdım ki, göylərdəsən,
sənə qanad gətirdim.
“Salamat qal” demişdim, sən salamat qal deyə,
mən salavat gətirdim.

Sən məni tərk eylədin, mən də səni unutdum,
indi harda günahdı?
Unudardım, heyif ki, unutmaq intihardı,
intihar da günahdı.

Evinizin önündə həsrət çəkən ürəyə
dağlamaq öyrətmişəm.
Adını çəkə-çəkə küçənizin itinə
ağlamaq öyrətmişəm.

İti də bezdirmişəm, artıq o da öyrəşib,
dərdini mənlə bölür.
O qədər bezdirmişəm, məni görəndə hürür,
səni görəndə gülür.

Od olmayan yerlərdən tüstü çıxmır, əzizim,
bu da sənin tüstündü.
İki tanrım var mənim, biri səndən üstündü,
biri sənin büstündü.

## AT NALI

Bir heykəlin önündə, təxminən, iki saat
bardaş qurub oturdum.
Cürbəcür inanclarla yenə səni diləyib
yenə arzu tuturdum.

Gah şeytana inanıb qabağımdan düz keçən
pişiyə təpik atdım,
Gah da səni diləyib əlli metr sağdakı
quyuya qəpik atdım.

Bir yandan istədim ki, gözlərimi yumaraq
gəldiyini zənn edim.
Bir yandan da təsbehlə adını zikr eyliyib
yeddi dəfə “sən” dedim.

Axı yaxşı bilirsən, mənim həyat yolumdur
sənin barmaq izlərin.
Göz muncuğu tapmadım, mənə təsəlli oldu
muncuq kimi gözlərin.

Mən ki adət etmişəm, çəkilib bir kənara
için-için ağladım.
Ayaqqabı ipimi ağacın budağına
lent əvəzi bağladım.

Hər inancı yoxladım, adını çəkə-çəkə
unutmağa başladım.
Əlimə daş götürdüm, keçib güzgü önünə
şeytanı da daşladım.

Sağ cibimdə at nalı, sol cibimdə yoncanın
qoparılmış ləçəyi.
Bir də ki əllərimdə, hər ehtimala qarşı,
“Sevir-sevmir” çiçəyi...